2021-2022-ci tədris ili üzrə Rumıniya ali təhsil müəssisələrində təhsil üçün keçirilmiş müsabiqə nəticəsində 3 Azərbaycan vətəndaşının namizədliyi müsbət qiymətləndirilib.

Qalib namizədlər Rumıniyanın “Bucharest University of Economic Studies”, “University of Bucharest” və “University Oil Gas Ploieşti” ali təhsil müəssisələrində bakalavriat və magistratura səviyyələrində psixologiya, sosial elmlər, mədən, neft və qaz ixtisasları üzrə təhsil alacaqlar.

Qeyd edək ki, təqaüd proqramının tələblərinə uyğun olaraq, tələbələr 1 il müddətində ödənişsiz rumın dili hazırlığına cəlb olunacaq. Bununla yanaşı, onların təhsil haqqı, yataqxana xərci, aylıq təqaüd və tibbi sığorta xərcləri Rumıniya tərəfindən, yol xərci isə Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən qarşılanacaq.

Müvafiq təqaüd proqramı barədə elan 4 mart 2021-ci il tarixində verilib.